SƏRİNGÜL SADƏ

BAYATI ÇƏLƏNGİ

“Elm və təhsil”
Bakı – 2021

Redaktor: **Elxan MƏMMƏDLİ**
filologiya üzrə fəlsəfə doktoru,
Əməkdar mədəniyyət işçisi

Rəyçi: **Əli ŞAMİL**

Kompüterdə yığan: **Validə BƏDƏLOVA**

Dizayner: **Vüsal ABİYEV**

Səringül Sadə. Bayatı çələngi.
Bakı, "Elm və təhsil", 2021, 152 səh.

4702000000 qrifli nəşr
N-98-2021

© "Elm və təhsil", 2021

SƏRİNGÜL SADƏNİN BAYATILARI

İstər şifahi, istərsə də yazılı ədəbiyyatımızda bayatı janrının xüsusi çəkisi və yeri var. Uzun illər nənə-babalarımızın dillərində dolaşan və getdikcə zəngin-ləşib, cilalanaraq poetik vüsət alan bayatılar poeziya-mızın ən yığcam janrlarından biridir. Bir çox mütə-xəssislərimizin də qeyd etdikləri kimi, bayatıların yaşı və yaranma tarixi xalqımızın yaşı qədər qədimdir. (Ə.Cəfərzadə, Ə.Haşımov). Bu incilər dildəndilə, ağızdan-ağıza düşərək günümüzə qədər gəlib çatmışdır. Bayatılarda xalqın sevinci, kədəri, istəyi, arzuları, vüsal məqamı və nakam məhəbbəti yüksək sənətkarlıqla əks olunmuşdur. Ayrılıq, həsrət, qürbət və möhnət dolu fikirləri özündə əks etdirən bayatılar həm də xalqımızın həyat tərzini, gün-güzəranını özündə əks etdirməkdədir. Müəllifləri bəlli olmayan bayatılar, təbii ki, ilk dəfə istedadlı nənə və babalarımızın yaratdıqları incilər olub. Bu bədii nümunələr dildən-dilə, ağızdan-ağıza keçdikcə daha geniş yayılaraq öz ilk müəllifini unutdurmuşdur. Və beləliklə, ümumxalq yaradıcılığının məhsulu kimi daha böyük ərazilərə yayıla bilmişdir. Bununla belə bu nümunə-

ləri düzüb-qoşan müəlliflərin adları ilə də yüzlərcə bayatı nümunəsi günümüzə gəlib çatmışdır. Vaxtında həmin müəlliflərin özləri və ya başqaları tərəfindən yazıya alınan bayatılar bu gün öz ilk müəlliflərini yaşatmaqdadır. Sarı Aşığın, Bikəsin, Zabitin, Lələnin və başqalarının bayatıları eyni zamanda onların özlərini də yaşatmaqdadır.

Fərəhləndirici haldır ki, bayatı bu gün də yaranır, yazılır, oxunur və sevilir. Xalqın yaradıcılıq ənənəsini bu gün ayrı-ayrı fərdlərin yaşatması təqdirəlayiq bir işdir. Az sözlə çox mətləbləri ifadə etmək, sözün dəyərini və nəyə qadir olduğunu yığcam şəkildə ifadə etmək bayatının əsas xüsusiyyətlərindəndir. Bəzən bir bayatının məna tutumu qalın-qalın kitabların verə bilmədiyi estetik zövqü verə bilir.

Necə dağlar...
Görünür necə dağlar?
Ayrılıq çəkən bilər
Yaş közü necə dağlar?!

Elə bilirəm bu nümunədə ifadə olunan mənanı xırdalamağa, təhlil etməyə ehtiyac da yoxdur. Sevindirici haldır ki, müasir bayatı müəlliflərimiz də xalqdan – nənə-babalardan gələn bu yığcamlığı, sözün məna yükünü nəzərə çatdırmaqda klassik ənənədən geri qalmırlar.

Qeyd etməliyəm ki, kitab kimi oxucuların ixtiyarına verdiyimiz Səringül Sadənin "Bayatılar"ı da məna və mündəricəsi, estetik dəyəri etibarı ilə diqqəti çəkəndir. Kitaba daxil edilmiş bayatılarla tanış olduqca müəllifin xalqın məişətini, adət-ənənəsini, istək və arzularını mükəmməl bildiyinin şahidi olursan. Onun xalq yaradıcılığını, xüsusən də xalq bayatılarını mükəmməl bilməsi, özünün yeni nümunələr yaratmasına zəmin yaradır. Uzun illər qürbət ellərdə yaşayan Səringül Sadə qürbətdə Vətən həsrətini çəkdiyini yüksək bədii detallarla oxucusuna çatdıra bilir:

Dərddən bihuş olmuşam,
Qürbətə tuş olmuşam.
Gəzirəm diyar-diyar,
Köçəri quş olmuşam.

Ağlaram-gülərəm mən,
Göz yaşım silərəm mən.
Qürbətdə yox, Vətəndə,
Rahatca ölərəm mən.

Səringül Sadənin bayatılarında bir üstün cəhəti də qeyd etmək istərdim. O da doğmalarına olan məhəbbətini bayatı ilə yığcam ifadə etməsindədir. Ata-anasına, qardaş-bacılarına həsr etdiyi bayatılar həqi-

qətən də səmimi hisslərin təcəssümü kimi diqqəti çəkir:

Anam mənim canımdı,
Damarımda qanımdı.
Gen günümdə sevincim,
Dar gündə həyanımdı.

Böyük qardaşı İladiyə həsr etdiyi bayatıda da müəllif özəlliklə hisslərini səmimi şəkildə belə ifadə edir.

Dədəm əvəzi qardaş,
Yolunda qoyaram baş.
Mənim sinəmə dəysin,
Ayağına dəyən daş.

Və yaxud, dünyadan vaxtsız köçmüş digər qardaşı Nəbinin xatirəsinə həsr etdiyi bayatılara diqqət edək.

Gözümün nuru qardaş,
Ötmədi suru qardaş.
Əynində qəm köynəyi,
Pak sudan duru qardaş.

Və ya:

Könlümün xanı Nəbi,
Görünmür, hanı Nəbi?
Dərdin oxu sinəmdə,
Saçının sanı, Nəbi.

Ümumiyyətlə, Səringül Sadənin bayatıları mövzu baxımından çox zəngindir. Vətənə, təbiətə, dağlara, dərələrə, elə-obaya, xüsusən də doğma Borçalıya, onun insanlarına sonsuz məhəbbəti poetik təqdimatda çox təbii və inandırıcı görünür:

Ağır elim Borçalı,
Şirin dilim Borçalı.
Sənə tərəf uzanır
Hər vaxt əlim, Borçalı.

Səringül Sadənin bayatılarında Qarabağ, onun taleyi ilə bağlı narahatlıq hissləri qabarıq təsvir olunur. Qarabağda öz qorxmazlığı və şücaəti ilə qeyri-adi qəhrəmanlıq nümunəsi göstərən Mübariz İbrahimovun hünəri öz əksini tapır:

Bir hünərdi Mübariz,
Qara nərdi Müabriz.
Qırdı qarı düşməni,
Şəhid ərdi Mübariz.

Hələ bir neçə il öncə yazdığı bayatılarda Qarabağın düşmən tapdığında qalması, Xocalı faciəsi, şəhidlərin tökülən qanını və s. ürək ağrıdan məqamları canıyananlıqla təsvir etmişdi:

Kişidə qeyrət olar,
Torpağa hörmət olar.
Alınmasa Qarabağ,
Hamıya töhmət olar.

– deyirdi Səringül Sadə.

Polad sınar, əyilməz,
Torpaqdan pay verilməz.
Alınmasa Qarabağ,
Bizə yaxşı deyilməz.

Xocalı qan gölüdü,
Yurdumun bir elidi.
Anaların gözünün
Axıb gələn selidi.

Şair müqəddəs şəhidlərimizin qisası alınmasa bizə başucalığı gəlməz deyir:

Gedib yurda sadağa,
Gömüldülər torpağa.
Qanları yerdə qalsa,
Düşərik bir qınağa.

Nə yaxşı arzuların çin oldu, Səringül xanım. Sənin də arzuların yerinə yetdi. Şəhidlərimizin qanı, Xocalının qisası artıqlaması ilə alındı. Şanlı ordumuzun, qəhrəman şəhid və qazilərimizin, Ali Baş Komandanımızın dəmir yumruğu ilə Qarabağımız azaddır.

Qara deyil Qarabağ,
Günü keçir ağappaq.
Düşmənlərin köksünə.
Ordumuz çəkibdi dağ.

Əziz oxucu, Səringül Sadənin sizlərə təqdim olunan bayatılarının məna və məzmun baxımından bəzi məqamlarını sizlərə çatdırdıq. Əslində bu bayatıların məziyyətləri təhlilə cəlb etdiyimiz məqamlarla məhdudlaşmır. Müəllifin qələmindən çıxan bayatılarda təmiz və saf məhəbbətin tərənnümü də xüsusi yer alır:

Mən aşiq, yarı sına,
Hərdən bir yarı sına.
Yarımı dəyişmərəm,
Dünyanın yarısına.

Var dərdi...
Hər kimsənin var dərdi.
Hər dərdin dərmanı var,
Sağalmazdı yar dərdi.

Səringülün nəsihətamiz-didaktik bayatıları da poetik cəhətdən mükəmməl nümunələrdir.

Mən aşiqəm yerində,
De sözünü yerində.
Gəl dilini dinc saxla,
Qulağı var yerin də.

Dəyəndi...
Pis söz qəlbə dəyəndi.
Dədələr yaxşı deyib,
İnsan çiy süd əməndi.

Yuxarıda qeyd etdiyimiz kimi, Səringülün bayatıları məzmun və mündərəcəsi etibarı ilə çox zəngindir. Ancaq biz onun kitabı haqqında bu qədər yazmaqla öz bələdçiliyimizi etdik. Şübhə etmirəm ki, kitabla yaxından tanış olan folklorşünaslar, qələm adamları bu bayatılar haqqında öz sözlərini deyəcəklər. Sonda Səringül Sadəyə möhkəm can sağlığı, bir də yaradıcılıq uğurları arzulayıram.

Elxan MƏMMƏDLİ
filologiya üzrə fəlsəfə doktoru,
Əməkdar mədəniyyət işçisi

BAYATILAR

Ya Əli,
Ya Məhəmməd, ya Əli.
Vətəni sevməyənlər
Ya sərsəmdi, ya dəli.

***

Vətəndədi,
Bilirəm Vətən nədi.
Özüm qürbət diyarda,
Xəyalım vətəndədi.

***

Sel haray,
Gözüm yaşı sel haray.
Qürbətdən vətən olmaz,
Oba haray, el haray.

***

Gəda gəlib baş olmaz,
Hamıya sirdaş olmaz.
Atalar belə deyib,
Yaddan heç qardaş olmaz.

Əzizim, bizim dağlar,
Söhbətim, sözüm dağlar.
Yandırır ərşi-gürşü,
Bu odum, közüm, dağlar!

***

Başda var,
Ağıl-kamal başda var.
Babaların izləri
Qobustanda – daşda var.

***

Bu dağa qırov düşüb,
Yağıya bir ov düşüb.
Heyif ki, neçə elim
Düşmənə girov düşüb.

***

O dağlarda gözüm var,
Yamacında izim var.
Məni ora yetirin,
Deyiləsi sözüm var.

Əzizim, el yeridi,
Yarğan uçdu, sel yeridi.
Şəhid oldu cavanlar,
Matəmə el yeridi.

***

Borçalı qədim diyar,
Tarixlərdə adı var.
Ondan uzaq düşəli,
Mənim könlüm qan ağlar.

***

Bizim dağlar laladı,
Alınmaz bir qaladı.
Suları abi-kövsər,
Torpağı Kərbəladı.

***

Ağır elim Borçalı,
Şirin dilim Borçalı.
Sənə tərəf uzanır
Hər vaxt əlim, Borçalı.

Xocalıdan tuş gördüm,
Bir qanadsız quş gördüm.
Zülm ərşə dayanıb,
Gedib ağıl, huş gördüm.

***

Bir hünərdi Mübariz,
Qara nərdi Mübariz.
Qırdı qarı düşməni,
Şəhid ərdi Mübariz!

***

Oğul, ərənlərdən ol,
Haqqı görənlərdən ol.
Torpaq kimi bir dənə,
Min dən verənlərdən ol.

***

Ağıllı səni yormaz,
Yamandan yaxşı olmaz.
Quyuda su yoxdusa,
Tökməklə quyu dolmaz.

Mən aşiq, elə düşsün,
Yaman kəs selə düşsün.
Bacar yaxşılıq eylə,
Ad-sanın dilə düşsün.

***

Səringül coşa gəldi,
Dərd ona qoşa gəldi.
İçə-içə qəmləri
O, əlli yaşa gəldi.

***

Əzizim, nə səsidi,
Eşq həyat həvəsidi.
Fərhad ölüb, dağlardan
Gələn külüng səsidi.

***

Var əli – kərəm əli,
Yox əli – vərəm əli.
Tanrı boşda qoymayıb
Heç vədə verən əli.

Qürbət el möhnət verər,
İnsana dəhşət verər.
Fələk bir dərd verəndə
Beşini qürbət verər.

***

İnsan olan ay ana,
Gərək ad-san qazana.
Rəhmət iş düzəldənə,
Lənət onu pozana.

***

Dəyəndi,
Pis söz qəlbə dəyəndi.
Dədələr yaxşı deyib,
İnsan çiy süd əməndi.

***

Ay hayıf,
Aldım qəmdən pay, hayıf.
Dilbilməzə tuş oldum,
Oldum ona tay, hayıf.

Yığıb dünya varını,
Gəl böyütmə qarını.
Düşmə tamah dalınca,
Gözlə namus-arını.

***

Tanrım bizə bəxt yazar,
O yazanı kim pozar?!
Günortaya qızmayan
Axşam çağı nə qızar.

***

Rəhm eylə, ey Yaradan,
Götür bunu aradan.
Nə qanır, nə qandırır,
Seçmir ağı qaradan.

***

O dağlarda gözüm var,
Zirvəsində izim var.
Gözünü çək, ey düşmən,
Kül altında közüm var.

Gündədi,
Kölgədədi, gündədi.
Yeyib yetim malını,
Ölməyib, pis gündədi.

***

Hər dağ başı qar deyil,
Hər gözəl də yar deyil.
Axtar, ara, tayın tap,
Dünya gendi, dar deyil.

***

Nəbi dərdi duyandı,
Canından pay qıyandı.
Verib son tikəsini,
Bu, Allaha əyandı.

***

Vidadi ziyalıdı,
O, nəslin cəlalıdı.
Sazını dindirəndə
Aşıqlar misalıdı.

Yağan qar suya dönər,
Günümüz aya dönər.
İnanma yad oğluna,
Dar gündə zaya dönər.

***

Dədəm əvəzi qardaş,
Yolunda qoyaram baş.
Mənim sinəmə dəysin
Ayağına dəyən daş.

***

Türkan bənövşə kolu,
Turan qeyrətlə dolu.
Asiflə Elnarənin,
Fidan məhəbbət yolu.

***

Dünya, səndə qonağam,
Güləm, yaşıl yarpağam.
Bu gün nazlı bir sənəm,
Sabah qara torpağam.

Ağlı-qaralı dünya,
Dərdli-bəlalı dünya,
Hərəyə bir dərd verib,
Qanlı-qadalı dünya.

***

Qaralı,
Dünya ağlı-qaralı.
Qarğış adam öldürməz,
Ancaq ki, qan qaralı.

***

Övlad Allah payıdı,
Arzu-ümid payıdı.
Varmı elə bir oğul,
Deyəm Teymur tayıdı.

***

Dərddən bihuş olmuşam,
Qürbətə tuş olmuşam.
Gəzirəm diyar-diyar,
Köçəri quş olmuşam.

Mən eldən-elə düşdüm,
Nagahan selə düşdüm.
Daş kimi yumarlanıb
Bir dərin gölə düşdüm.

***

Dağlarda qarmı yoxdu?
Bağlarda barmı yoxdu?
Torpağa kəm baxanın
Üzündə armı yoxdu?!

***

Ağır-yüngül bilənəm,
Yol-ərkana gələnəm.
Qohum-qardaş yolunda,
Lazım gəlsə ölənəm.

***

Pay verdi,
Yarım qəmi pay verdi.
Mən yalvardım fələyə,
O, dərdimə tay verdi.

Tanrımız, bu əyandı,
Can verən, can alandı.
Lüt gətirib dünyaya,
Lüt də yola salandı.

***

Bu dünyaya "puç" demə,
Ömrə-günə "heç" demə.
Dərd ver, sağalan olsun,
Vaxtlı-vaxtsız "köç" demə.

***

Toru gördüm,
Alovu-qoru gördüm.
Ölməmişkən dünyada
Gözümlə goru gördüm.

***

Viranə bağlar gördüm,
Qurumuş tağlar gördüm.
Analar ağladanın
Anasın ağlar gördüm.

Dünya çoxdan yalandı,
De, kimlərə qalandı.
Sadənin ömrü-günü
Hey odlara qalandı.

***

Qalan yoxdu,
Gedən var, qalan yoxdu.
Dünya dərd dolu bazar,
Satan var, alan yoxdu.

***

Nə yolum,
Yox cığırım, nə yolum.
Qəm-kədər yıxdı məni,
Söylə, necə şad olum.

***

Ay yanar,
Ulduz yanar, ay yanar.
Dərdimi suya desəm,
Göl quruyar, çay yanar.

Bu nə tufan-borandı,
Bilməm necə dövrandı?!
Dərdimi bəndə bilməz,
Tək Allaha əyandı.

***

Əzizinəm, o xəndan,
Mən kədərli, o, xəndan.
Beş əliylə qəm mənim
Bərk yapışıb yaxamdan.

***

Mən aşiqəm, nədəndi,
Telə düşən nə dəndi?
Xəyal dağda-aranda,
Məndə quru bədəndi.

***

Dağ-dərəyə çən düşüb,
Güllərə şəbnəm düşüb.
Görünmür yolum-izim,
Köçüm köndələn düşüb.

Mən bir büllur şüşəyəm,
Qorxuram daşa dəyəm.
Amandı, ayaqlama,
Ətirli bənövşəyəm.

***

Var dərdi,
Hər kimsənin var dərdi.
Hər dərdin dərmanı var,
Çəkilməzdi yar dərdi.

***

Səringül oda yandı,
Qohuma-yada yandı.
Özü düşdü alova,
Can getdi bada, yandı.

***

Aşiq, nə hala qaldım,
Sorğu-suala qaldım.
Qaçdım qabağa düşəm,
Yıxıldım dala qaldım.

Bəxt yazan qara yazdı,
Qismətsiz yara yazdı.
Döndüm imdad dilədim,
Onu da qara yazdı.

***

Bal dünya,
Acı dünya, bal dünya.
Gələnlər gəldi, köçdü,
Sən salamat qal, dünya!

***

Dilin bilir quşun da,
Torpağın da, daşın da.
Dilbilməzi oturdub
Ocağının başında.

***

Əzizim, nələr gördüm,
Çoxunu mələr gördüm.
Dərdi qapıdan qovdum,
Bacadan girər gördüm.

Dərin dünya,
Dərindən dərin dünya.
Səndən doyan görmədim,
Çözülməz sirrin, dünya.

***

Dərd ki gəldi, bəladı,
Hamı da mübtəladı.
Çox dərdlərə çarə var,
Ayrılıq nə bəladı?!

***

Yarı xəlvət gördünmü?
Saçlarını hördünmü?
Yardan ayrı düşənin
Dərd-sərini böldünmü?

***

Yerli-yersiz gülürsən,
Olar-olmaz deyirsən.
Baxmayıb ağ-bozuna,
Əldən alıb yeyirsən.

Yaralanmış quş oldum.
Yad oxuna tuş oldum,
Dərdi-sərin əlindən
Dözmədim, bihuş oldu.

***

Bəxti çaşdı Sadənin,
Gözü yaşdı Sadənin.
Qəm-kədəri, möhnəti
Başdan aşdl Sadənin.

***

Mən aşiqəm, ay ağa,
Çəkmə məni sınağa.
İstəsən bu canımı
Verrəm sənə sadağa.

***

Bülbül oxur qəfəsdə,
Bir yanğı var o səsdə.
Onun ahı-fəğanı
Eyləyir məni xəstə.

Qəm evində baş canım,
Dərdliyə sirdaş canım.
Gözümlə od görmüşəm,
Yenə dözüb daş canım.

***

Dağların dağ yeri var,
Bağların bağ yeri var.
Aç köksümü, ay həkim,
Gör orda sağ yeri var?

***

Ömrü qışdı anamın,
Yeri başdı anamın.
Ölüb qızı, qardaşı,
Gözü yaşdı anamın.

***

Bağban çox ağac əkər,
Hamısı çətin bitər.
Keçəldə dərman olsa
Onu başına çəkər.

Dönükdü üzün, dünya.
Quyruğu uzun, dünya,
Can alıb qan tökürsən,
Heç doymur gözün, dünya.

***

Kim ki qərib insandı,
Göz yaşları leysandı.
Vətən dərdi çəkənə
Qürbət ellər zindandı.

***

Kim ki təkdi, qəribdi,
Dərdə sinə gəribdi.
Qəm-kədərin bağından
Bol "meyvələr" dəribdi.

***

Eləmi, başa gəldi,
Axdı sel, coşa gəldi.
Nədən qorxurdum, ellər,
O da bu başa gəldi.

Qürbət el can alandı,
Canım orda talandı
Kim desə ki qürbətdə
"Mən xoşbəxtəm", yalandı.

***

Çəmənzardı baxçamız,
Dopdoludu boxçamız.
Gedirik qız toyuna,
Çiynimizdə xonçamız.

***

Layla çalan yatırar,
Tufan gəmi batırar.
Eldə ağsaqqal olsa,
Çox dava, qan yatırar.

***

Əziz balam İsmayıl,
Bürcüm, qalam İsmayıl.
Sən yanımda – bülbüləm,
Sənsiz lalam, İsmayıl.

Anam mənim canımdı,
Damarımda qanımdı.
Gen günümdə sevincim,
Dar gündə həyanımdı.

***

Mənim arzum vətəndi,
Yurd yerimsə çəməndi.
Bizim elin qızları
Yaxşı, ey süd əməndi.

***

Tərin tökən gətirər,
Yeyib-yatan itirər.
Allahın könlü olsa,
Daşda da gül bitirər.

***

Bu ellərə əyandı,
Dünya mənə zindandı.
Başıma nələr gəlib,
Danışsam bir dastandı.

Dünya boşdu, yalandı,
Çoxu vuran-çalandı.
Qadın var, su sonası,
Qadın da var, ilandı.

***

Ağacda alma sarı,
Gözlərəm gəlsin yarı.
Özü gələ bilmirsə
Məktub göndərsin barı.

***

Səringül Sadə mənəm,
Yol gedən piyadə mənəm.
Günlərim qürbətdə keçib,
Dərdləri ziyadə mənəm!

***

Sən bax hər bir insana,
Baş əyir Yaradana.
Ana da yaradandı,
Səcdə edək biz ona!

Vurulmuşam mən dağa,
Doğma yurda-torpağa.
Mən qurbanam, ay ellər,
Ay-ulduzlu bayrağa!

***

Oğlum, cahi-cəlalım,
Mənim dövlətim, malım.
Gəl, bir boyunu görüm,
İtsin dərdim, məlalım.

***

Zimistandı baharım,
Çoxdu dərdim-azarım.
Bəxtim yuxuya gedib,
Bağlanıbdı bazarım.

***

Yuxum ərşə çəkildi,
Dan yeri də söküldü.
Ömrüm-günüm, gəlsənə,
Gözüm yola dikildi.

Ay Tanrım, kərəm eylə,
Mənə az sitəm eylə.
Əsliyə döndər məni,
Yarımı Kərəm eylə.

***

Namərdin qolu düşsün,
Bağına dolu düşsün.
Əzrayılın onlara
Həmişə yolu düşsün.

***

Əyrilər-düzlər məni,
Kotan tək düzlər məni.
Tapdalama tağımı,
Dərirsən düz dər məni!

***

Yeri-göyü yaradan,
Qoru bizi bəladan.
Gözün yollarda qalsın,
Qəlb incidib əzən can.

Günüm gecədən qara,
Ürəyim dərddən yara.
Qəlbimi bütöv verdim,
Qaytardı mənə para.

***

Üzükdəki qaş mənəm,
Hamılardan baş mənəm.
Kimsəylə yox bir işim,
Çoxuna sirdaş mənəm.

***

Canım daşdı-dəmirdi,
Dərd sultandı, əmirdi.
Qaçanmadım əlindən,
Məni yıxdı-gəmirdi.

***

Yaxşılıq ömür yolu,
Möcüzə-sirlə dolu.
Ömürdən o uzundu,
Eyləyək ömür boyu.

Yoluna çıraq olum,
Saçına daraq olum.
Kefinin saz çağında
Mən sənə qonaq olum.

***

Tanrının kərəmi bol,
Tut ətəyin, səcdə qıl.
Tövbə qapısı açıq,
Xeyir tapar gedən qul!

***

Dərd ələr,
Fələk göydən dərd ələr.
Güllədən yan keçənin
Ürəyini dərd dələr!

***

Dərdi-qəmi çəkən var,
Könül tikən, sökən var.
Bilin fani dünyada
Şər toxumu əkən var.

Günüm aya dönübdü,
Qəddim yaya dönübdü.
Gözümün axan yaşı
Coşqun çaya dönübdü.

***

Bu dünya xali deyil,
Kimsəyə qalı deyil.
Acısı-şirini var,
Beçənin balı deyil.

***

Can ana!
Hər kəlməsi can ana
Yüz namərd qurban olsun
Bir əhli-hal canana!

***

Çiçək mənəm, gül mənəm,
Dərdli-qəmli, bil mənəm.
Əsli odlara yandı,
Yerdə qalan kül mənəm.

Gözümün nuru qardaş,
Ötmədi suru, qardaş.
Əynində qəm köynəyi,
Pak sudan duru qardaş.

***

Könlümün xanı Nəbi,
Görünmür, hanı Nəbi?
Dərdim oxu sinəmdə,
Saçımın sanı, Nəbi.

***

Aman naşı əlindən,
Atmır daşı əlindən.
Sinəm qara yanıbdı,
Gözüm yaşı əlindən.

***

Qar yağar, yolu bağlar,
Boşalar, dolu bağlar.
Yoxluq ölümdən betər,
Dili, əl-qolu bağlar.

Qara qonar qarğalar,
Qarğa uçar, qar alar.
Aslan da qocalmasın,
Gözün deşər qarğalar.

***

Araz kimi daşanam,
Kürlə də qovuşanam.
Zalım fələk, atdığın
Hər oxa mən nişanam.

***

Eşq alınmaz bir qala,
Ölüb-itəm, yar qala.
Tanrım canı bizlərə
Bir veribdi, bir ala!

***

Meşənin kolu mənəm,
Cığırı, yolu mənəm.
Dərib eşqin bağından
Xurcunu dolu mənəm.

Qürbətdən Vətən olmaz,
Hayına yetən olmaz.
Açsa qönçə gülləri,
Bülbülü ötən olmaz.

***

Kaş elə bir gün olsun,
Arzularım çin olsun.
Deyirəm dünyamızda
İslam vahid din olsun!

***

Yerləri hey baş olsun,
Sadəyə sirdaş olsun.
Kəbədə olanların
Könülləri xoş olsun.

***

Tikib-yaradıb-qursun,
Ziyarətə baş vursun.
İslamı sevənlərin
Xudam üstündə dursun!

Zərxara yar köynəyi,
Əyninə dar köynəyi.
Tərpənsə köksün üstə,
Yandırar nar köynəyi.

***

Əl çək məndən qüssə-qəm,
Get qərar tut bircə dəm.
Sevinc alıb könlümü,
Tap özünə bir həmdəm!

***

Dünya fani, yalandı,
Söz sahibi sultandı.
Haqqı nahaqqa verən,
İnsan deyil, şeytandı!

***

Kor şeytana uymayın,
Yaxşılıqdan doymayın.
Səxavət böyük savab,
Əldən yerə qoymayın!

Bağrı qara laləyəm,
Qəm dolu piyaləyəm.
İnlərəm ney, kaman tək,
Ah-fəğanam, naləyəm.

***

Ötür qəfəsdə dil-dil,
Yad edir yarı bülbül.
Ah-fəğandan, nalədən
Görünmür gözünə gül!

***

Ömrü verdim bada mən,
Həm dərya, həm ada mən.
Əsli Kərəmlə yandı,
Dərddən yandım oda mən.

***

Uralandım, talandım,
Mən dünyanı dolandım.
Od-ocaq qalamadım,
Özüm oda qalandım.

Eşq badəsin içən var,
Od-alovdan keçən var.
Eşqə fəda olana,
Fərhad yolu seçən var.

***

Qoynunda var iki nar,
Mən olmuşam giriftar.
Canımı oda yaxır,
Hər dənəsi atəş-nar.

***

Haqq fərmanı pozulmaz,
Haqdan ümid üzülməz.
Elə ki düyün düşdü,
O kələf heç çözülməz!

***

Sözdə ümid-inam var,
Sözdə doğru-yalan var.
Deyib sözündən qaçan,
Sözün üstə duran var!

Öyrətdi sağ, həm solu,
Getdim o gedən yolu.
Mən dədəmin qızıyam,
Sinəm bayatı dolu.

***

Kərəm-lələli dağlar,
Ağır şələli dağlar.
Özgə evin yıxanın
Öz koması dağılar.

***

Ağlaram, gülərəm mən,
Göz yaşım silərəm mən.
Qürbətdə yox, Vətəndə
Rahatca ölərəm mən.

***

Doğulmuşam fevralda,
Hər yan qardı bu ayda.
Bəxtim borana düşüb,
İsitmir məni yay da.

Duman sürünər gedər,
Dağa bürünər gedər.
Ömür yuxuya bənzər,
Bir an görünər gedər.

***

At gedər, nalı düşər,
Boynuna yalı düşər.
Qürbət eldə bəxtimə
Qar yağar, dolu düşər.

***

Keçər gedər,
Hər gələn keçər gedər.
Kimsəyə rəhm eyləməz,
Əzrayıl biçər gedər.

***

Quran vursun,
Haqq döysün, Quran vursun.
Könül evi yıxanı
Mən kiməm, vuran vursun.

Eləmi dərdi məndə,
Dərdi de dərdimində.
Dərd dolu gəmi gəldi,
Lövbəri saldı məndə.

***

Ağacın barı oldum,
Bəxtsizin yarı oldum.
Yaşım qırxı keçməmiş
Qocaldım, qarı oldum.

***

Dağda su sərin olar,
Dərələr dərim olar.
Ana, dilin dinc saxla,
Narahat yerin olar.

***

Hər ocaqda köz olmaz,
Hər deyilən düz olmaz.
"Qonşu paxıl olmasa,
Evdə qalan qız olmaz".

Ay qəriblər,
Dərd-qəmə tay qəriblər.
Bu fələkdən alıblar
Göz yaşı pay qəriblər.

***

Nizami Leyli yazdı,
Oldu gileyli yazdı.
Məcnun qanı axdıqca
Səhrada "Leyli" yazdı.

***

Araz çayı bulandı,
Könül evim talandı.
İndi bildim dünyamız
Bihudədi – yalandı.

***

Axıtsın sellər məni,
Aparsın yellər məni.
Atsın Şindi dağına,
Bürüsün güllər məni.

Haşa çəkər,
Xəncəri daşa çəkər.
Qaynananın əlindən
Gəlinlər haşa çəkər.

***

Ömrün qışı, yayı var,
Hərənin öz payı var.
Namərd kefdə-damaqda,
Mərdin ahı-vayı var.

***

Başkeçid meşə-koldu,
Yaylağı, dağı boldu.
Gözlədim, yar gəlmədi,
Bu gün də axşam oldu.

***

Gözü zərgər atamın,
Əli dülgər atamın.
Sözünə baş əyibdi
Hər vaxt ərlər atamın.

Sirli-sehrli dünya,
Sirli, möhürlü dünya.
Çalar məni də bir gün,
Əqrəb zəhərli dünya.

***

Şanələr teldə gəzər,
Sonalar göldə gəzər.
Yaxşıların ad-sanı
Sayılar, eldə gəzər.

***

Qızılgülsən tikanlı,
Dərsin bir dəliqanlı.
Qarşına bir bəy çıxsın,
Ağıllı, həm vicdanlı.

***

Çəkmişəm çox kədəri,
Görmüşəm qəm-qəhəri.
Belimdə dərd şələsi,
Gəzmişəm kənd-şəhəri.

Eləmi kövşən yeri,
Biçilmiş kövşən yeri.
Od bürüyər dörd yanı,
Yandırar düşən yeri.

***

Qaçan yoxdu,
Fələkdən qaçan yoxdu.
Fələk qapı bağlasa,
Heç onu açan yoxdu.

***

Eləmi dağlar yolu,
Qar yağar, bağlar yolu.
Gəl tərpətmə anamı,
Sinəsi dağlar dolu.

***

Sərçeşmə seçən hanı,
Suyundan içən hanı.
Eşq yolunda Fərhad tək,
Canından keçən hanı?

Yaxasına,
Gül taxıb yaxasına.
Canı qurban elərəm
Sözünün ağasına.

***

Bəxtin güləndən olsun,
Yeyin gedəndən olsun.
Çiçək açsın bağımız,
Gülləri xəndan olsun.

***

Əlli nədir, yüz nədir,
Əyri nədir, düz nədir.
Mən ki özüm yanıram,
Sən atdığın köz nədir?

***

Kimlər bilməz namus-ar,
Etdiyin gözə soxar.
Verdiyi bir tikəni
Udmamış başa qaxar.

Sular axar, durular,
Nə durar, nə yorular.
Mübariz tək mərd oğul,
Burda yenə doğular.

***

Bu yol Şindinin yolu,
Yanı bənövşə dolu.
Canımdan da əzizdir
Şindinin daşı-kolu.

***

Göydə uçan durnalar,
Sizdən bir xahişim var.
Vətən səmtə uçsanız,
Məndən deyin salamlar.

***

Gəl pozma sən halını,
Yığma dünya malını.
Bir gün gələr görərsən,
Köç təbilin çalını.

Bu ki qanmaz ayıdı,
Qızların ən zayıdı.
Nə alan var, nə satan,
Un çuvalı tayıdı!

***

"Can" deyilməz, ay ana,
Hər yerindən durana.
Rəhmət iş düzəldənə,
Lənət vurub-qırana!

***

Xocalı,
Oğulların öc alı.
Dilbilməz, pis əlindən
İşin qalıb haçalı.

***

Quyruğu uzun dünya,
Dönükdü üzün, dünya.
Can alıb qan tökürsən,
Heç doymur gözün, dünya.

Yalan dünya,
Bir şahmar ilan dünya.
Qaldırır, gah endirir,
Sanki nərdivan dünya.

***

Bu aşıq oynağandı,
Gör bizləri nə sandı.
Beş deyib, bir eşqidir,
Cavandı, beyni qandı.

***

Əzizinəm, qardaşım,
Sənsiz zəhərdi aşım.
Səslən, hayına gəlim,
Dərə-təpə, dağ aşım!

***

Qardaşım Qara Nəbi,
Dərdimə çara, Nəbi.
Sən görən qara saçım,
Bənzəyir qara, Nəbim!

Sultanım, xanım Buta,
Damarda qanım Buta,
Xonça bağla dərdini
Ərməğan sanım, Buta!

***

Alan öyünsün,
Kamın alan öyünsün.
Mən gedirəm, a dünya,
Səndə qalan öyünsün.

***

Dağda boran-qar olar,
Yollar-izlər tar olar.
Taylı tayın tapmasa,
Günü ahu-zar olar.

***

Bağçada gül qönçədi,
Yarpaqları incədi.
Tanrı, yazına qurban,
Yarım ürəyimcədi.

Yolları zərxaradı,
Haqqın yolu oradı.
Dünyada güvənc yerim,
Kəbədi, Kərbəladı.

***

Gəl düşək sorağına,
Gedək Mina dağına.
Canı fəda eyləyək,
Daşına, torpağına.

***

Gözələ,
Heyranam o gözələ.
Tanrım, düşmən başına,
Alov yağdır, köz ələ!

***

Yüz il qar,
Dağda durar yüz il qar.
Dost dediyin kəslərdə
Gərək olsun düz ilqar.

Hər zaman de Əli, sən,
Mərdə söylə "bəli" sən.
Çalış dosta-tanışa
Uzat kömək əli sən.

***

Huşa getdim, duş gördüm,
Bir danışan quş gördüm.
Dedi durma, sev, sevil,
Özümü bihuş gördüm.

***

Ay mənim Fidan balam,
Gözləri ceyran balam.
Nənə sənə canını
Eyləyər qurban, balam.

***

Qoşa nədi,
Gəlibsən cuşə nədi?
Arvad evdə bir olar,
Alıbsan qoşa, nədi?

İnsanı sınar
İnsan insanı sınar.
Dosta yalan söyləsən,
Onun gümanı sınar.

***

Yaş neylər,
İslanmışa yaş neylər.
Dərddən dağa dönmüşəm,
Sən atdığın daş neylər.

***

Aşiq dağa sığındı,
Təpə dağa sığındı.
Mənəm-mənəm deyən kəs
On arşına sarındı.

***

Daşdan çıxar,
Su axıb daşdan çıxar.
Uyma çox gülüzlüyə,
O ağlın başdan çıxar!

Yaşa gəldi,
Ömür qırx yaşa gəldi.
Bəxtim gendən dolandı,
Toxunub daşa, gəldi.

***

Gül qırmızı, sarıdı,
Bülbül gülün yarıdı.
İsmayılla Ayrinim[1],
Teymurun nübarıdı[2].

***

Ağlı-qaralı dünya,
Dərdli-bəlalı dünya.
Hərəyə bir dərd verib,
Sonra öc alı dünya.

***

Dağılıb, elim yoxdu,
Ocaqda külüm yoxdu.
Qürbətdə lal kimiyəm,
"Ağzımda dilim yoxdu".

[1] İsmayılla Ayrin – şairin nəvələridir.
[2] Teymur – şairin oğlu

Günəş gözəl, ay gözəl,
Dərə-təpə, çay gözəl.
Tanrımızdan gözəllik,
Düşüb sənə pay, gözəl.

***

Qəm evində baş mənəm,
Gözdən axan yaş mənəm.
Həsrətəm el-obaya,
Gölə düşən daş mənəm.

***

Qızılgül ləçək-ləçək,
Cəmi güllərdən göyçək.
Özünə get yar axtar,
Mənim yarımdan əl çək.

***

Sıxır ev-oda məni,
Gəl salma oda məni.
Özünü bəyənən yox,
Bəyənmir o da məni.

Əzizim, gözlər məni,
Yandırar, közlər məni.
Canımdan bezdiribdi
Tikanlı sözlər məni.

***

Ömür ötür heç nədən,
Saçlarıma düşür dən.
İndi kiçik bir qaşıq,
Böyük olub çömçədən.

***

Əzizim, bizim dağlar,
Söhbətim-sözüm dağlar.
Sizdən ötrü qürbətdə
Qalıbdı gözüm, dağlar.

***

Mən yadlara tay oldum,
Yanlarında zay oldum.
Çatammadım arzuma,
Bir qurumuş çay oldum.

Birdimi, dərdi çəkək,
O gəlir ətək-ətək.
Məqsədə bilməm, nədən
Qoymayır çataq fələk.

***

Xəstəyəm, dərmanım yox,
Heç nəyə gümanım yox.
Yoxa çıxıb dincliyim,
Kədərsiz bir anım yox.

***

Atam-anam baş tacım,
Qolum-qanadım bacım.
Can-ciyərim qardaşdı,
Onu sevmək amacım!

***

Yer var günəş yandırar,
Cəhənnəmi andırar.
Yer var cənnətə bənzər,
Həyat nədir qandırar.

İnsafsızdan, dinsizdən,
Nələr çəkdim, bilin mən.
Cavan ikən saçlara
Fələk saldı tezcə dən.

***

Əzizinəm yaralar
Fələk qəlbi yaralar.
Bel bağlama heç zaman
Ürəyini paralar.

***

Mənə qürbət yazılıb,
Kədər-möhnət yazılıb.
Diri-diri elə bil
Məzarım da qazılıb.

***

Qərib üzü gülərmi?!
Qərib sevinc bilərmi?!
Dərddən yanan qəribə
Qismət qarşı gələrmi?!

Dağlı dağa bağlıdı,
Güllü bağa bağlıdı.
Dağa həsrət dağlının
Ömrü dağa bağlıdı.

***

Dağlar dağa həyandı,
Dağlı ona heyrandı.
Dağlı dağa bənzəyir,
Bu ellərə əyandı.

***

Dağlınınkı dağdı, bil,
Demə ki bal-yağdı, bil.
Dağı sevən bəndənin
Hər vaxt üzü ağdı, bil.

***

Yaddan çıxmaz yaz-qışı,
Vətənin torpaq-daşı.
Heç kəsilməz, bilin ki,
Qəriblərin göz yaşı.

Qürbət dərdi yamandı,
Qürbətdən qaç, amandı.
Qürbət eldə qəribin
Başındakı dumandı.

***

Soran olmaz halını,
Qəribin əhvalını.
Onlar üçün dünyada
Qəm tütəyi çalını.

***

Qərib sevər bayatı,
Qəmlə keçər həyatı.
Damağında dad olmaz,
Seçməz təzə bayatı.

***

Qərib qəmdən şələli,
Ola bilməz nəşəli.
Neyləsə də, fərqi yox,
Çoxu deyər səy-dəli.

Qəribləri qəm əyər,
Qərib olan qəm yeyər.
Neçə daş atılsa da,
Çoxu qəribə dəyər.

***

Əzizinəm, duyanam,
Doğru sözə uyanam.
Çətin olan bir işi
Öz yoluna qoyanam.

***

Karvanam, yüküm qəhər,
Yoldayam axşam-səhər.
Dərd alıb daşıyıram,
Keçmir ki, günüm hədər.

***

Bax sola-sağa, yanar,
Piltə sal yağa yanar.
Qərib gördüyü günü
Söyləsə dağa, yanar.

Bu dünyadan bezmişəm,
Həyatdan əl üzmüşəm.
Qəm-qüssəni, kədəri
Ətrafıma düzmüşəm.

***

Azalmır dərd-məlalım,
Ay sənin dərdin alım.
Bilmirəm, mən başıma
Haranın daşın salım.

***

Dərd çəkmək qalıb mənə,
Qəm meyli salıb mənə.
Yerindən qalxan hər kəs
Söz deyib, çalıb mənə.

***

Çox gördüm iki üzü,
Lağ etdi mənə yüzü.
Bax indi dərk etmişəm,
Sevən yox doğru-düzü.

Az gözünü sıx, canım,
Bacar dərdi yıx, canım.
Namərdə əl açdınsa,
Adamlıqdan çıx, canım.

***

Dərəyəm, var yarğanam,
Sellə dolu hər yanım.
Dərə olub qəmlərə
Körpəlikdən bu canım.

***

Ağrımasın heç anam,
Mən anama qurbanam.
O, nə zaman ağrısa
Az qalıram mən yanam.

***

Kəhər atlar, boz atlar,
Çəmənlikdə göy otlar.
Düşsə nadan əlinə,
Atın da bağrı çatlar.

Müqəddəslər bəli, var,
Məhəmməd var, Əli var.
Yaxşı-yaman hər işdə,
Yaradanın əli var.

***

Ayaq nədi, baş nədi,
Gözdü, gözsüz qaş nədi?!
Öləndə heç gəlmədin,
Axıtdığın yaş nədi?!

***

Dərd mənlə
Kəsib sanki şərt mənlə.
Qohumların neçəsi
Davranırlar sərt mənlə.

***

Ay qardaş, ülkər qardaş,
Zər qardaş, zərgər qardaş.
Bacandan tüstü çıxsın,
Bu mənə yetər, qardaş!

Möcüzəli sirr Tanrı,
Bizi eylə hürr, Tanrı.
Balama kömək olsun
On iki imam, bir Tanrı.

***

Bu nə qismət, nə yazı,
Qınayıram Arazı.
Bölünmüşük ikiyə,
Yer də, göy də narazı.

***

Mən Səringül Sadəyəm,
Qəmlə dolu badəyəm.
Aygün atlı-çapardı,
Mənsə hey piyadayam.

***

Sözü qan,
Böyük-kiçik sözü qan.
Qayıt Allah yoluna,
Sən əyrini-düzü qan.

Qəmlər məni,
Köz üstə dəmlər məni.
Nə anlayar, nə qanar,
Ağıldan kəmlər məni.

***

DərdiməND,
Dərddən oldum dərdiməND.
Qəmdən bir səbət hörüb
Onu etdim cana bənd.

***

Qohum haraya gələr,
Körpəyə dayə gələr.
Ağsaqqal sözü keçsə,
Hamı araya gələr.

***

Nər çəkər,
Yüklə yükü, nər çəkər.
Vətən, millət qeyrətin
Ər balası, ər çəkər!

Açılmaz,
Hər bağlı sirr açılmaz.
Ər dediyin ipək sap,
Düyün düşsə açılmaz.

***

Üstədi,
Dava mal-pul üstədi.
Agah olun, verən əl
Alan əlin üstədi.

***

Dağın başından gəldim,
Elin xasından gəldim.
Dünya mənim deyənin
Dünən yasından gəldim.

***

Beləsinə,
El çətin elə sinə.
Yalan söz dərd-azardı,
Qayıdar yiyəsinə.

Yaxşıdı,
Düzlük mərdin naxşıdı.
Elə doğru var, bilin,
Yalan ondan yaxşıdı.

***

Sudayam, alışmaram,
Qeybətə qarışmaram.
Düzü qoyub heç vədə,
Əyridən danışmaram.

***

Əzizim, körpüsüdür,
Memarın hörgüsüdür.
Bu günkü ağıllı söz
Sabahın körpüsüdür.

***

Xəsis qana çəkibdi,
Yeyib yana çəkibdi.
Fələk verib dövləti,
İmtahana çəkibdi.

Bezdirdi şərtlər məni,
Öldürdü dərdlər məni.
Namərd nəyimə gərək,
Axtarsın mərdlər məni.

***

Səlim bənzər gur çaya,
Çəkib dədə-babaya.
Çoxdu hörmət-izzəti,
Duaçıdı Mövlaya.

***

Səlim kimi yox biri,
Düzəldir kəm-kəsiri.
Qohumlara hey verir,
Məsləhəti-tədbiri.

***

Hacı Səlim əzizdi,
Saf insandı, təmizdi.
Onun qəlbi bilin ki,
Bir ümmandı - dənizdi.

Ömrün qışı, yayı var,
Hərənin öz payı var.
Bağa qulluq edənin
Payız vaxtı barı var.

***

Dərddən uca dağ anam,
Sinəsi dağ-dağ anam.
Nəbi deyib ağlayır
Başı qar tək ağ anam.

***

Yağıb, örtüb qar daşı,
Qarlı dağı kim aşı?!
Əmanətdi torpağım,
Qoru, saxla, qardaş.

***

Qardaşım Qara Nəbi,
Dərdimə çara Nəbi.
Hər dərddən ağır oldu,
Sən vuran yara, Nəbi.

Can verib, can alandı,
Sonra yola salandı.
Ölüm qaş-göz arası,
Qəfil gələn düşməndi.

***

Axar su dura bilməz,
Xəlbirə dola bilməz.
Hörmət olmayan yerdə
Məhəbbət ola bilməz.

***

Qardaş ay-ülkərimdi,
Sərimdi-sərvərimdi.
And yerim, ümid yerim,
Mənim dil əzbərimdi.

***

Eşq ərənlər yoludu,
Hamı onun quludu.
Diqqət eylə, yaxşı bax,
Sirlər ilə doludu.

Yar gözündə yaş olam,
Sirr verəm, sirdaş olam.
Eşqdən bəlaya düşsə,
Dərdinə yoldaş olam.

***

Məlhəmsiz yaralaram,
Ürək ver, yar, alaram.
Gözün bir gözə baxsa,
Ox olub yaralaram.

***

Hər bir dağda qar olmaz,
Aşiq biilqar olmaz.
Çiçəklənər hər ağac,
Hamısında bar olmaz.

***

Saçlarıma düşdü dən,
Pay ummadım bir əldən.
Dünya karvan yoludu,
Gələn gedir bir əldən.

Əzizinəm əyandı,
Yaxşı, yaman da yandı.
Tanrıya şükür olsun,
Qəm karvanım dayandı.

***

Yaşıl-alı neylərəm,
Dövlət-malı neylərəm.
Qədəmim uğurludu,
İpək xalı neylərəm.

***

Sözdən qaçan, duran var,
Hikmət dolu Quran var.
Sözlə yerlərə yeksan,
Sözdən qala quran var.

***

Balı, nə yağı tapdı,
Kəfənlik ağı tapdı.
Özünə yar gəzirdi,
Canına yağı tapdı.

Bacılar qardaş ağlar,
Tökər qanlı yaş, ağlar.
Ahlarından yer titrər,
Tərpənər dağ-daş, ağlar.

***

Dərdin yoldaşı Nəbi,
Qəmin sirdaşı Nəbi.
Düşər gözümün yaşı,
Yandırar daşı, Nəbi.

***

Anam çox, həm az görüb,
Yüz çiçəkli yaz görüb.
Əzəldən bu dünyanı
Zülmkar, qurnaz görüb.

***

Soruşubdu haqq hanı,
Söz mülkünün xaqanı.
Sözdən bəzək vurubdu
Bu dünyaya Xaqani.

Dağlamayın köz ilə,
Yandırmayın söz ilə.
Əyridən uzaq durun,
Dostluq edin düz ilə.

***

Yapışır zəli kimi,
Danışır dəli kimi.
Hamı əyri, o düzdü,
Dəvənin beli kimi.

***

Kişidə qeyrət olar,
Torpağa hörmət olar.
Alınmasa Qarabağ,
Hamıya tömət olar.

***

Xocalı qan gölüdü,
Yurdumun bir elidi.
Anaların gözümün
Axıb gələn selidi.

Gedib yurda sadağa,
Gömüldülər torpağa.
Qanları yerdə qalsa,
Düşərik biz qınağa.

***

Polad sınar, əyilməz,
Torpaqdan pay verilmə.
Alınmasa Qarabağ
Bizə yaxşı deyilməz.

***

Deyim nələr görmüşəm,
Ağlar-gülər görmüşəm.
Heç ağla gəlməyəni
Başa gələr görmüşəm.

***

Sev torpağı-vətəni,
Dağıt başından çəni.
Yanına yoldaş eylə
Düzü-haqqı deyəni.

Nəbi ol, ya Koroğlu,
Get onlar gedən yolu.
Təkcə mənim yox, bala,
Olasan elin oğlu.

***

Zil qara saçlım mənim,
Ay çəmənim, gülşənim.
Üzü günəşdən gözəl,
Aypara qaşlım mənim.

***

Dövlətim-malım mənim,
Pətəkli balım mənim.
Sinəsi quzey qarı,
Yanağı alım mənim.

***

Ey könlümün sultanı,
Sənsən canımın canı.
Sən Sadəyə ürək ver,
Versin sənə cahanı.

Qarı qıza dönübdü,
Əldə közə dönübdü.
Minibdi cin atına,
Qız-gəlini yenibdi.

***

Hey yağır qarım mənim,
Bitmir ah-zarım mənim.
Könül evi zimistan,
Gəlmir baharım mənim.

***

Şimşək olub çaxmışam,
Canı oda yaxmışam.
Ağ gün bizdən gedəndə
Arxasınca baxmışam.

***

Görmüşəm çox fitnə-al,
Gəl məni əlindən al.
Şadam deyib dünyada,
Geyinmədim yaşıl, al!

Ərənlər heç öyünməz,
Darılıb nə deyinməz.
İtirəndə qəmlənib,
Tapanda da sevinməz.

***

Anam müşkül çözəndi,
Sözü sözə düzəndi.
Yamanlığı yox edib,
Həqiqəti gəzəndi.

***

Deyirəm sözüm qala,
Bala bənzəyir, bala.
Yetim malı qan-irin,
Gəl toxunma, ay bala.

***

De sözünü alana,
Qulağında qalana.
Kamandakı oxdu söz,
Atma boşa-yalana.

Olubdu mənə yağı,
Ahım tutsun o dağı.
Gəlib peşman dönürəm,
Çəkdi mənə yar dağı.

***

Uzaqdayam, yalqızam,
Aydan böyük ulduzam.
Lənət bivəfa yara,
Nə gəlinəm, nə qızam.

***

Arxalığın al-yaşıl,
Baxanda ağıl çaşır.
Belimdəki qəm yükün
Əl uzat, özün aşır.

***

Atamın qızı mənəm,
Ocağın közü mənəm.
Bayatılı yolunun
Cığırı-izi mənəm.

Atam yazdı bayatı,
Örnəkdi bizə adı.
İçdim içdiyi sudan,
Mən də daddım bu dadı.

***

Salam haqqın özüdü,
Salam Tanrı sözüdü.
Din-islam ocağının
Salam sönməz közüdü.

***

İgid ərənlərim var,
Ordu yenənlərim var.
Gedib yağı üstünə,
Bağır bölənlərim var.

***

Oyan, a qara baxdım,
Düşmüşəm dara, baxdım.
Bir ömür səni gəzdim,
Qalmadı hara baxdım.

Can verən, can alandı,
Qaldırandı, salandı.
Apardığın kəfəndi,
Nə var, burda qalandı.

***

Dərd mənə peyvənd olub,
Boynuma kəmənd olub,
Haqlayıb çatır mənə,
Bir köhlən səmənd olub.

***

Qarğalar,
Uca dağda qar qalar.
Şir-pələng də qocalsa,
Göznü deşər qarğalar.

***

Qəmdən şələli canım,
Kərəm lələli canım.
Özü öznə düşmən,
Tənə-hədəli canım.

Uyub fitnə-yalana,
Bizi salan böhtana.
Tapşırıram mən səni
Can verib, can alana.

***

Araz Kürlə yarışır,
Pıçıltıyla danışır.
Baxmayıb çətinliyə,
Bir-birinə qarışır.

***

Aşiqəm, ana gördüm,
Qəsd edir cana gördüm.
Dərdi-sərin əlindən
Az qalıb yana, gördüm!

***

İş ki dönüb sirr olar,
Yol göstərən pir olar.
Çox olsa da söz deyən,
Söz sultanı bir olar.

Xəyallara dalaram,
Sözü sözə calaram.
Sözdən küsən könlümü
Sözlə geri alaram.

***

Bir salam gələ səndən,
Olmaz başda duman-çən.
Sənə qurban verməyə
Bu canı dilə məndən.

***

Dünya kədər, ah-ündü,
Düşünmə toy-düyündü.
Kimsədə yox etibar,
Bəxt də düyün-düyündü.

***

Ürəkləri duyanam,
Bayatıya uyanam.
Bəzi çətin işləri
Öz yoluna qoyanam.

Aqili hamı andı,
Qanmaz gördü, utandı.
Mərdin bəxtinin şamı,
Namərdin canı yandı.

***

İnsanın kələyi çox,
Sözü var, zəhərli ox.
Min qapı tanıyıram,
Gedəcəyim biri yox.

***

Qamətini dərd əysin,
Qoy yerə dizi dəysin.
Namərd gözünə oxun,
Əllisi-yüzü dəysin.

***

Dərd sarmaşıq – sarılar,
Ürək dözməz, yarılar.
Dərd əlindən ömür-gün
Sona çatmaz, qırılar.

Dərd ilə dolu dünya,
Bağlayıb yolu dünya.
Döndərib məni qula,
Tanrının qulu, dünya.

***

Bəy balam, ağa balam,
Bənzərsən dağa, balam.
Dərd əlindən yox məni
Oxşadan sağa, balam.

***

Axır gözümdən selim,
Dönmür ağzımda dilim.
Təklənib tək qalmışam,
Çatmır kimsəyə əlim.

***

Ərdi evin dirəyi,
Ailənin köməyi.
Onsuz günüm olmasın,
Odur Sadə ürəyi.

Ulduz aya qarışıb,
Bulaq çaya qarışıb.
Xoş günüdü Tanrının,
Payım paya qarışıb.

***

Dədəm evi şen olsun,
Hər yanı gülşən olsun.
Qapısında qonağı
Atlanıb-düşən olsun.

***

Bənzəyir lələ dünya,
Bizlərə lələ dünya.
Pozulmaya növrağı,
Qala hey belə dünya.

***

Hünər doğur hünərdən,
Sən dillənib, de ərdən.
Azərbaycan ordusu
Bəlli olub zəfərdən.

Bir körpə quzu mələr,
Yalayar duzu, mələr.
Özgəni ağladanın
Axırda özü mələr.

***

Çoxuna kömək oldum,
Bal dolu pətək oldum.
Ümidlərim qırıldı,
Boş qalan ətək oldum.

***

Geyibdi alı dağlar,
Dindirir lalı dağlar.
Gününü xoş eyləyib,
Dərdini alı dağlar.

***

Sən çat dada-haraya,
Bir yaxı qoy yaraya.
Müxənnətə qoşulub
Gedib girmə araya.

Yaxşı-yaman tən deyil,
Yaxşılıq itən deyil.
At torpağa yamanı,
Cücərib bitən deyil.

***

Baxmayır sözə namərd,
Düşübdü izə namərd.
Ovunu görən kimi
Çökübdü dizə namərd.

***

Gözümə uyan ola,
İş yola qoyan ola.
Ürəkdən keçənləri
Gözdəncə duyan ola.

***

Naçar ağlar,
Hər dərdə düçar ağlar.
Balası ölən quş da
Yuvadan qaçar, ağlar.

Gözəl ağlar,
Dərd çəkər, əzəl ağlar.
Sözü sözə calayıb
Yan-yana düzər, ağlar.

***

Gəlin var ki, davalı,
Durmaz, gəzər havalı.
Elə işlər görər ki,
Dilləndirər o, lalı.

***

Ağrıyırsa yar canı,
Axtarmayın loğmanı.
Yarı yara yetirin,
Yardı yarın dərmanı.

***

Sözdən xana qurmuşam,
İlməsini vurmuşam.
Qaçmamışam sözümdən,
Sözüm üstə durmuşam.

Dolandın məndən kənar,
Vermədin bir xoş qərar.
Tikanlı sözün sənin
Hey qəlbimi yaralar.

***

Kəsmir fəğanım, Elxan,
Od alıb canım, Elxan.
Uzat mənə əlini,
Oduna yanım, Elxan!

***

Anam mənə söz dedi,
Eylə səbir, döz, dedi.
Sən namərdə güvənib
Alma ələ köz, dedi.

***

Xəncər vurma, can gedər,
Axar, durmaz qan, gedər.
İnsaf yoxsa birində
Din qalmaz, iman gedər.

Dərdi uca dağ gördüm,
Günü qara-ağ gördüm.
Böyüyünün üzünə
Çox övladı ağ gördüm.

***

Yel əsər, ular gedər,
Çağlayıb sular gedər.
Əliqanlı Əzrayıl
Ovunu bular gedər.

***

Yardan gəlib gül dəstə,
Ətri var gülün üstə.
Mənəm gülün dəlisi,
Bülbül yox mən həvəsdə.

***

Yar yar üçün xəstədi,
Elə bil qəfəsdədi.
Qırılmayıb inamı,
Qulaqları səsdədi.

Daşı mamırlı dağlar,
Palçıq-çamırlı dağlar.
Qoynu qonaq-qaralı,
Yağış-yağmurlu dağlar.

***

Dərələr selə neylər,
Təpələr yelə neylər,
Yüz min loğman fələyin
Qırdığı belə neylər.

***

Qədrini bil hər anın,
Sağlam olsun qoy canın.
Bilən yoxdu vaxtını,
Gələn dərdin-bəlanın.

***

Sözlərin bir öyüddü,
Bəxtim barsız söyüddü.
Nə gül açıb, bar verdi,
Nə barını böyütdü.

Mən Kərəməm Lələli,
Beli qəmdən şələli.
Açılmaz keşiş fəndi,
Əsli tilsim düyməli.

***

Əzizim, bizim dağlar,
Səndədir izim, dağlar.
Yaylağın yada düşdü,
Qatlanır dizim, dağlar.

CİNASLI
BAYATILAR

Quran var,
Yaradan var, quran var.
İslam nurdan yaranıb,
Əlimizdə Quran var.

***

Əli mindi…
Düldülü Əli mindi.
Siz məndən çox uzaqda,
Yetişmir əlim indi.

****

O dağlar,
Ocaq yanar, od ağlar.
Gülü qana boyanıb,
Viran qalıb o dağlar.

****

Aydı yarı,
Günəşin Aydı yarı.
Görünmür xarıbülbül,
Tutulub, ay diyarı.

Mən aşiqəm, bağdadı,
Bülbül meyli bağdadı.
Yağı düşmən taladı,
Viran qoydu Bağdadı.

Dağda var,
Tər bənövşə dağda var.
Yoxdu yolu, yolçusu,
Tənha qalan dağ da var.

Güllü bağlar,
Yaramı Güllü bağlar.
Heyif, yadlara qaldı
Çəmənli, güllü bağlar.

Yar andı,
Öz yarını yar andı.
Bu dünyada gözəllik
Məhəbbətdən yarandı.

Aşiq, mərdi-mərdanə,
Doğub mərdi mərd ana.
Ya düşmən ol, ya da dost,
Mənlə mərdi-mərdanə.

Əzizinəm, ay yarar,
Bulud gələr, ay yarar.
Kim haradan daş atsa,
Tapar başım, ay yarar.

Mən aşiqəm, nə dindi,
Nə danışdı, nə dindi.
Bilən yoxdu tutduğu
Nə məzhəbdi, nə dindi.

Mən aşiqəm, yerində,
De sözünü yerində.
Gəl dilini dinc saxla,
Qulağı var yerin də.

Mən aşiq, vətən dərdi,
Saralar çəkən dərdi.
Neyləyim, qönçə gülüm,
Bir yoldan ötən dərdi.

***

Mən aşiqəm, bu dayaz,
Bu zimistan, bu da yaz.
Hamı bir ola bilməz,
O dərindi, bu dayaz.

Əzizinəm, hasarı,
Kirpik gözün hasarı.
Qız istəsə gedəcək,
Bağla, bərkit, ha sarı.

Götürdü,
Dünya gördü, götürdü.
Yığdığını tək yedi,
Öləndə el götürdü.

Mən aşiq, yarı sına,
Hərdən bir yarı sına.
Yarımı dəyişmərəm
Dünyanın yarısına.

Əzizinəm, bir inci
Bir yaqutdu, bir inci.
Göydən ensə dərd-bəla,
Düşər bizə birinci.

Gözəl andı,
Xoş dövran, gözəl andı.
Hər zaman düz dolana,
İçməyə gözəl andı.

Qar alı,
Dağ başını qar alı.
Dedim mənə həmdəm ol,
Etdin günüm qaralı.

Gül incə,
Yarpaq zərif, gül incə.
Niyə qanmır bunları,
Siz deyin o gülüncə.

Mən aşiqəm, hayana,
Ver hayıma hay, ana.
Dərdin-qəmin əlindən
Söylə gedim hayana?

Aşiqəm, oda yandı,
Ev yandı, oda yandı.
Fələyin sitəmindən
Mən yandım, o da yandı.

Üzü nə,
Astarı nə, üzü nə.
Nə desəm söz qaytarır,
Daş yamanıb üzünə.

Ay yarıdı,
Baxıram ay yarıdı.
Allahdan yarıyan kəs
Bəndədən də ay yarıdı.

Yara bax,
Sağalmaz bu yara, bax.
Mənim anam can verir,
Deyib-gülən yara bax.

Eləmi yarı yolda,
Yar qoydu yarı yolda.
Mən qaçdım, fələk qovdu,
Haqladı yarı yolda.

Ya dala,
Qəvvas[3] gölə, ya dala.
Qiyamət onda qopar,
Sevdiyini yad ala.

[3] Qəvvas – dalğıc, üzgüçü

Əzizinəm, ay ağa,
Xoş gəlmisən, ay Ağa.
Uzaq dolan namərddən,
Səni salar ayağa.

Aşıq, tər sinə gördüm,
Basmış tər sinə gördüm.
"Mən düzəm" deyənləri
Hər vaxt tərsinə gördüm.

Ya dəli,
Ya divanə, ya dəli.
Vətən gülzara dönər,
Toxunmazsa yad əli!

Aşiq, gəl iç az andı,
Dua vaxtı – azandı.
Haqqın yolundan çıxan
Öz yolunu azandı.

Yar yarına can verdi,
Can alanlar can verdi.
Qızıldan taxtı olan
Quru yerdə can verdi.

Ya Şama,
Ya Bağdada, ya Şama.
Könlüm səni istəyir,
Gəl nahara, ya Şama!

Yar alar,
Yardan yara yar alar.
Dili qılınca dönər,
Yüz yerindən yaralar.

Yüz üzü,
Qəvvas göldə yüz üzü.
Mərdin bir sifəti var,
Namərdlərin yüz üzü.

Yar dağı,
Aşiqsənsə yar dağı.
Məni yaradan Tanrı,
Öldür, çəkmə yar dağı.

Düzü çəkər tərsinə,
Astarı bu, tərsi nə?
Nadan mərdin üzünə
Sillə vurur tərsinə.

Yay qarı
Qədd-qaməti yay qarı.
Könlüm hər zaman istər
Qışda narı, yay qarı.

Düşən var
Atlanan var, düşən var.
Sözünə dönük çıxan,
Neçə gözdən düşən var?!

Dərd üzə,
Qoyma canı dərd üzə.
Könlüm bulanlıq dərya,
Çətin çıxa dərd üzə.

Aşiq, bəladan məni,
Qoru bəladan məni.
Gecəni şirin yatdım,
Tutdu bəla dan məni.

Qan adın,
Sınsın qolun-qanadın.
Can alıb qan tökürsən,
Fələk, sənin qan adın!

Balasızlar,
Anasız bala sızlar.
Tanrı, sənə əyandı,
Nə çəkir balasızlar.

Günü gətir,
Ay-ulduz, günü gətir.
Səndən xoş gün istədim,
Demədim günü gətir.

Yaratdı,
Varı yoxdan yaratdı.
Fələk mənə qıymadı,
Aldı oxu, yar atdı.

Dərd yeridi,
Süründü, dərd yeridi.
Könlüm evi gülüstan,
Oylağı dərd yeridi.

Gülə bəxt,
Ola iqbal, gülə bəxt.
Yazı yazan nədənsə
Yazmayıbdı gülə bəxt!

Qəmə yağı,
Sevincdi qəmə yağı.
Tapdayıb, ömrüm üzüb,
Qırılsın qəm ayağı.

Aşıq, butamı gördüm,
Yatdım butamı gördüm.
İçdim eşqin camını,
Mən də bu tamı gördüm.

Yad ocaq,
Can qızdırmaz yad ocaq.
Oğul düşmən toxmağı,
Qız qalayar yad ocaq.

Gül mənə,
Ağla mənə, gül mənə.
Mən gülə bənzəmirəm,
Bənzəyibdi gül mənə.

Yeri dağlar,
Od yanar, yeri dağlar.
Məcnuna səhra düşdü,
Fərhadın yeri dağlar.

Hər ata,
Bel bağlama hər ata.
Atalıq edə bilməz
Hər oğula hər ata.

Əyri qarı,
Düzəlməz əyri qarı.
Mən yuxumda görürəm
Lələri, Əyriqarı.

Belə üz, belə sinə,
Zülflərin belə sinə.
Qoy Tanrım tay eyləsin
Yaxşını beləsinə.

Qandısa,
Get al, qana-qandısa.
Tüpürmə, görən olar,
Ağzın dolu qandısa.

Gül üzə,
Yar yarına gül üzə.
Ənlik, kirşan nə lazım,
Haqq yaradan gül üzə.

Qara torpaq,
Eyb örtər qara torpaq.
Yaz yaşıla bürünər,
Qışda da qara torpaq.

Eləmi altdan-altdan,
Bizləyir altdan-altdan.
Hər telindən bir şeytan
Boylanır altdan-altdan.

Haraya gəlim,
Çağır, haraya gəlim.
Nə qapın var, nə bacan,
Söylə, haraya gəlim?

Dərdə zalımı,
Düşsün dərdə zalımı.
Mən desəm dərdin alım,
Səndən dərd azalımı?

Qəm zəlidi,
Yar nazlı-qəmzəlidi.
Yapışır, qanım sorur,
Əl çəkmir, qəm zəlidi!

Yarı qaldı,
Yar öldü, yarı qaldı.
Dərdli dərddən ölmədi,
Əridi, yarı qaldı.

Ayağı qan,
Kəkliyin ayağı qan.
Mən tək elin dağılsın,
Qusasan, a yağı qan!

Naşı dərdi,
Nə qanır naşı dərdi.
Tər töküb bostan əkdim,
Barını naşı dərdi.

Sinə-sinə,
Mərd gəzməz sinə-sinə.
Dağlar çəkdi Mübariz,
Düşmənin sinəsinə.

Qardaşa,
Qardaş arxa qardaşa.
Ömründən pay da çıxıb,
Bacı verər qardaşa.

Eləmi yar-yarı,
Unutmasın yar yarı.
Alanda bütöv alsın,
Qaytarsın yarı-yarı.

O yandı,
Kərəm olub, o yandı.
Fələyin rəhmi gəldi,
Yatan bəxtim oyandı.

O yanmadı,
Mən yandım, o yanmadı.
Bülbül olub oxudum,
Yatan yar oyanmadı.

Çataçat,
Yanar ocaq çataçat.
Fələk tufan eylədi,
Məqsədimə çataçat.

Qara qandı,
Damarda qara qandı.
Dilbilməzə tay oldum,
Ağ dedim, qara qandı!

Düz düzə,
Bənna daşın düz düzə.
Tanrım, elə olaydı,
Yazılaydı düz-düzə.

Məni yollar,
Yorubdu məni yollar.
Fələk gedər-gəlməzə
Deyəsən, məni yollar.

Bal alar,
Arı güldən bal alar.
Dərd bir yerə kök salsa,
Hey çoxalıb balalar.

O yana,
Qismət düşüb o yana.
Çalına Sur tütəyi,
Bəlkə bəxtim oyana.

Ay ana,
Dərdim dağa tay, ana.
Məni doğub bəxtimi
Doğmamısan, ay ana.

Qəm gətirər,
Qəmləri qəm gətirər.
Cana hər dərdi-səri
Gətirsə qəm gətirər.

Dərindi,
Dərd quyusu dərindi.
Bala barı ucada,
Qoçaqsansa, dər indi.

Zəlil eylər,
Qurudar, zəlil eylər.
Varını möhkəm tutan
Canını zəlil eylər.

Yaxam qan,
Üzüm cızıq, yaxam qan.
Əzrayıl buraxmayır
Əllərini yaxamdan.

Yandı canım, oy ana,
Gedə bilməm o yana.
Neyləyim ki, bu bəxtim,
Yuxusundan oyana.

Yara can,
Ürək qandı, yara can.
Yar yanımda can verdi,
Verəmmədim yara can.

Birisin,
"Əlif" beydi, biri "sin".
Belimdə od qaladın,
Uzat əlin, bir isin.

Bax bostana, o tağa,
Meyil salma otağa.
Ölüb torpaq olaraq
Bitirərik ot, ağa.

Əzizinəm, tər sinə,
De, düzəldər tərsi nə?
Dünya özü əyridi,
Hey fırlanır tərsinə.

Aşiq ay ara bir-bir,
Sızlar a yara bir-biri.
Şeş gətirən bəxt verər,
Yeki ay arabir

A yağa, hayıf,
Düşdüm ayağa, hayıf.
Müxənnətə bükülən
Bezə, ay ağa hayıf.

Aç gözünü oyan, yar,
De necədir o yan, yar?
Sinəmi yarğan edib
Ürəyimi oyan yar.

Ölsəm məni yad elə,
Basdıramyın yad elə.
Qohum yanar ağlayar,
Ağlayanmaz yad elə.

Yara bağlar,
Yar meylin yara bağlar.
Dil var, açar yaranı,
Dil də var, yara bağlar.

Sən də gül,
Yar ətri var səndə, gül.
Ağlayıram, ağlama,
Mən güləndə sən də gül.

Gəl incitmə, a nadan,
O yetimdi anadan.
Qəlb qıranın üstünə
Açılmasın ana dan.

Aşıq çaldı "Dilqəmi",
Dilə gətdi dil qəmi.
Məclis əhli yad etdi,
Eşqdən nakam Dilqəmi.

Satdın məni yada sən,
Günahkar mən, ya da sən.
Külək haradan əsdi,
Saldın məni yada sən.

O da getsin,
İstəmir o da getsin.
At ürəkdən dərd-qəmi,
Qoy yansın, oda getsin!

Bəxt yazan qara yazı,
Ömrümü qara yazı.
Canımı od yandırdı,
Dondurdu qar ayazı.

Dal-dala,
Dərdi vermə dal-dala.
Qüdrət, kərəm sahibi,
Dərddən məni daldala.

Bu dərdi,
De, kim çəkər bu dərdi?!
Cəfa çəkdim, bağ saldım,
Gəlib barı bu dərdi.

Çən gələ,
Yol saçını çəngələ.
Fələk qarmaq atıbdı,
Yarım düşüb çəngələ.

Dərdimi,
Bağban gülü dərdimi?
Şələləyib belimə,
Gəzdirirəm dərdimi.

Ay ağlar,
Bulud ağlar, ay ağlar.
Yaş yerinə qan tökdüm,
Gözə gəlib ay ağlar.

Namərd dərdi,
Mərd əkdi, namərd dərdi.
Mərddən xəta gözləmə,
Verəcək namərd dərdi.

Damar-damar,
Gözə qan damar-damar.
İnsanlar cürbəcürdü,
Torpaqsa damar-damar.

Aşıq, yol aç, bağlama,
Söylə qoşma, bağlam.
Sazdan-sözdən xonça tut,
Göndər mənə bağlama.

Bir dərdim,
Min becərdim, bir dərdim.
Loğman qurtara bilməz,
Min məlhəmə bir dərdim.

Şamı şamla,
Yandırdım şamı şamla.
Hələbi tapanmadım,
Gəzirəm Şamı şamla.

Bürc, hasar sözüm qala,
Yol açmaz sözüm qala.
Dünya, məndən nişanə
İstərəm sözüm qala.

Qara hey,
Günüm gündən qara, hey.
Kərəm borana düşdü,
Sadə həsrət qara, hey!

Arı gülə,
Vurulub arı gülə.
Söyləsən kim vurulmaz
Gözələ arı gülə.

Fələk dağdan,
Əl çəkmir fələk dağdan.
Dərdimi kiçiltməyir
Nədənsə fələk dağdan.

Düyündü,
Dərd sinəmdə düyündü.
Hər şanlı Zəfər günü
Şəhidlərə düyündü.

Gülə sarı,
Gülü yığ, gülə sarı.
Könlüm bülbülə dönüb,
Vurnuxur gülə sarı.

Dağda qarı,
Qəm çəkər dağda qarı.
Ahı-ünü, fəğanı
Əridər dağda qarı.

Heç dəyməsin yerə sər,
Zəlzələdə yer əsər.
Namərdi mərd önündə
Tanrım, yerdən-yerə sər.

Yüz ələ,
Yüz xəlbirlə yüz ələ.
Düz əlin səxavəti
Verilməyib yüz ələ.

Olubdu sözüm ağı,
Söylərəm özüm ağı.
Qarasına qarışıb,
Ay ellər gözüm ağı.

Gördüyünü.
Gör toyu-gör düyünü,
Söyləyər igid olan,
Gözüylə gördüyünü

Yar əsər.
Yar dərdindən yar əsər.
Məhəbbətdən yarına,
Yaradıbdı yar əsər.

Yaşıldı,dağlar aldı,
Fələyin işi aldı.
Yığıb dərdi-sərini,
Canımdan dağlar aldı.

Yar ata
Tanrım sənə yar, ata.
İnsafdımı oxları,
Yar qəlbinə yar ata.

Yar ay aman.
Dərdindi yara yaman.
Dilin-ağzın qurusun,
Qandıran yara yaman.

Dər dəymiş
Şamamanı dər dəymiş
Önündə baş əyilənin
Qamətini dərd əymiş

Bu dağlar,
Ürəyimi bu dağlar.
Yalvarıram,dinməyir,
Lala dönüb bu dağlar

Yar güləm.
Arıya dön,yar gül əm.
Qəmə yoldaş eyləyib,
Qoymur məni yar güləm.

Gül əsər
Meh tərpətsə,gül əsər.
Yarım güldən zərifdi,
Köynəyini gülə sər.

Yolu tikan-qanqaldı,
Qan qovğadı,qan qaldı
Tufan qopdu,sel yudu,
Yerdə nahaq qan qaldı.

Alçalar.
Göy yerinə al çalar.
Əyriliklə ucalan,
Rəzilliklə alçalar.

Dərdi nə
Bitirdi nə,dərdi nə?
Xudam bir dərman göndər,
Paxıllığın dərdinə.

Oda yan.
Demədi dur o,dayan.
Ürəyimə od salan,
Düş saldığın oda,yan.

Budağa.
O nökər bu da ağa,
Qaçıb zülmün əlindən,
Sığınıbdı bu dağa.

Odu yardı.
Bu diyar o diyardı,
El yolunda çox igid,
Atlanıb odu yardı.

Üzü qara
Döşəndim üzü qara.
Eylədi namərd məni,
Dil gödək üzüqara.

Yad ağlar
Qohum ağlar,yad ağlar.
Dərd-qəm düşdüyü yeri,
Ya dağıdar,ya dağlar.

Yaşa dolar.
Gözləri yaşa dolar.
İnanmayın bir qərib,
Sevinər,ya şad olar.

Yaraşıqdı.
Üstaddı,yar aşıqdı.
Ədəb-ərkan,yol bilmək,
Aşığa yaraşıqdı.

Oxu qan.
Al dərsini,oxu qan.
Burdan bir ovcu keçdi,
Adı dövran,oxu-qan.

Ata sözü.
Var dədə,ata sözü.
Tez gələ söz sərrafı,
Ortaya ata sözü.

Əcəl gəldi yara-dan.
Yarım öldü yaradan,
Kəs məndən qəm payını,
Yeri-göyü Yaradan.

Yardan olsun.
Zülməti yar,dan olsun.
Yarı yardan edəni,
Özü də yardan olsun.

Söz üzü,
Ağ-qaradı söz üzü,
Kəndirdəki boğazı,
Söz saxlayı,söz üzü.

A yağı.
Canın çıxsın a yağı,
Heç dəyməsin vətənə,
Yağı düşmən ayağı.

Yasəməni.
Al çiçək,ya səməni.
Toydan təzə çıxmışam,
Batırma yasa məni.

Qovğadı,işi aldı,
Kamını meydən aldı.
Sərxoş gözü görmədi,
Yanağım meydən aldı

Yarı yaşıl,yarı al
Ağlar qoyma,yarı al.
Bil ki,evlər yıxandı,
Əzəlindən fitnə-al.

LAYLALAR, OXŞAMALAR

Layla süsən sünbülüm,
Layla bağçada gülüm.
Böyü, atım qəm yükün,
Mən də sevinib gülüm.

***

Layla cahu-cəlalım,
Layla dövlətim-malım.
Eşidib xoş sədanı
Gülsün bəxtim, iqbalım.

***

Layla ağ göyərçinim,
Layla gözəl-göyçəyim.
Böyü, ad al, xalı sal,
Qoy çırtdasın çiçəyim.

***

Layla, igid, ər balam,
Layla, qoçaq, nər balam.
Adlı-sanlı insan ol,
Sən göstər hünər, balam.

Layla, ürəyim yağı,
Layla, gözümün ağı.
Əksilməsin heç vədə
Qoy başının yığnağı.

***

Layla, mənim nər balam,
Ay balam, ülkər balam.
Arzum budu, böyüyüb
Olarsan əsgər, balam.

***

Layla, mənim bal balam,
Murazını al, balam.
Qoy mən çalım laylanı,
Sən yuxuya dal, balam.

***

Layla, ayım, ulduzum,
Layla lilpar, yarpızım.
Nənə desin laylanı,
Yatsın xınalı quzum.

Layla, dinim-imanım,
Layla, körpə ceyranım.
Sən beşikdə rahat yat,
Mən başına dolanım.

***

Layla, fəxrim-vüqarım,
Layla, Murov, Qoşqarım.
Başın ərşə dayansın,
Mənim dövlətim-varım.

***

Layla, aranım-dağım,
Layla, meyvəli bağım.
Böyü, gözüm səndədi,
Sənsən qolum-budağım.

***

Körpələrin ən xası,
Həyatımın mənası.
Fidan, boyuna qurban,
Ay balamın balası.

Türkanım sevir sazı,
Edir hamıya nazı.
Dərsdən sonra saz çalır,
Olur özündən razı.

***

Əziz balam Türkanım,
Sənə qurban bu canım.
Sənsən arzu-ilhamım,
Dağım-düzüm, aranım.

***

Türkanım güllü yazdı,
Sanki kamandı, yazdı.
Sevir nənə-babanı,
Mehriban, xoş avazdı.

***

Qəndim, şəkərim, balım,
Sənsən dövlətim-varım.
Gözmü sənə dikmişəm,
Böyü fəxrim, vüqarım.

Qızım güldü-çiçəkdi,
Gül üstə kəpənəkdi.
Gözləyin, uçub gedər,
Məndən sizə deməkdi.

***

Qızım qənddi-noğuldu,
Qız yox, mənə oğuldu.
Kim söz dedi nənəyə,
Dönüb saçını yoldu.

***

Qızım günəş-qəmərdi,
Körpədi – südəmərdi.
Tanrı, olmayana ver,
Olanların nə dərdi.

***

Qızım sevir qucağı,
Alatoran durmağı.
Allaha yalvarmışam,
Öyrənsin oturmağı.

Qızım yatır mışhamış,
Nənə keşikdə durmuş.
"Ağlağandı" deyibdi
Hansı dili qurumuş?!

***

Ey balamın balası,
Ey evimin çırası.
Atan vuran ürəyim,
Sən gözümün qarası.

***

Qızım hələ qönçədi,
Çox zərifdi, incədi.
Tanrı versin tayını,
Elin ürəyincədi.

***

Ayrin güldü-qönçədi,
Sazdı, tar-kamançadı.
Tanrımın bayram günü
Göndərdiyi xonçadı.

Ayrin pişik saxlayır,
Gündə yüz yol saxlayır.
Sevir gülü-çiçəyi,
Yolmur, onu qoxlayır.

***

İsmayıl adıbəlli,
Doğması, yadı bəlli.
Mən daddım, siz də dadın,
Nəvənin dadı bəlli.

***

İsmayıl babam adı,
Sevibdi qohum-yadı.
Arzum budu Allahdan,
Sönməsin ocaq-odu.

***

İsmayıl gül butası,
Hər dərdimin çarası.
Atası dəliqanlı,
Təmkinlidi anası.

Yeri, boyunu görüm,
Oyna oynunu görüm.
Bir arzum var, İsmayıl,
Sənin toyunu görüm.

***

İsmayıl istiqanlı,
Mehriban, qohumcanlı.
Çəkibdi babasına,
Mərd igid, dəliqanlı.

***

Canda canım İsmayıl,
Qəlbim, qanım İsmayıl.
Dola qolnu boynuma,
Teymur sanım İsmayıl.

***

İsi günəş, Ayrin ay,
İsi dəniz, Ayrin çay.
İsi mənə göndərir,
Ayrin alır məndən pay.

Gül balam, çiçək balam,
Saçları ipək balam.
Nənən sənə diləyir,
Tanrıdan kömək balam.

***

Əlində var tüfəngi,
Özü dağlar pələngi.
Zəfər çalıb çaldıracaq,
Mənim balam bir "Cəngi".

***

Qızım qızların başı,
Qızım üzüyün qaşı.
Geyinsin toy donunu,
Yola salsın qardaşı.

***

Ay mənim əsgər balam,
Sinəsi sipər balam.
Hoydu, vətən dardadı,
Tez çalın zəfər, balam.

İsmayıl qəlbidolu,
Kürün, Arazın qolu.
Göstərilir barmaqla,
Bəllidi nəsli-soyu.

***

Qızım bir almaz daşı,
Qızım Səməndər quşu.
Payına qurban, ay Allah,
Qızıma ver qardaşı.

Kitabın içindəkilər:

Elxan Məmmədli. Səringül Sadənin bayatıları 3
Bayatılar 11
Cinaslı bayatılar.....102
Laylalar, oxşamalar.....140

"Elm və təhsil" nəşriyyatının direktoru:
N.MƏMMƏDLİ

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 18.10.2021
Şərti çap vərəqi 9,5. Sifariş № 258
Kağız formatı 84x108 1/16. Tiraj 300

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4